1 esas_1 esas.qxd 28.12.2023 14:08 Page 1

**Yeni iliniz mübarək!**



"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır"

Heydər Əliyev

*Heydər Əliyev – xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet №17-18 (1540) 16-26 dekabr 2023-cü il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Mehriban Əliyeva İlham Əliyevin doğum günü münasibətilə paylaşım edib



**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstagram" hesabında Prezident İlham Əliyevin doğum günü münasibətilə bağlı paylaşım edib.**

Milli.Az xəbər verir ki, paylaşımda deyilir:

"24.12.2023. Doğum gününüz mübarək, cənab Prezident! Sizə möhkəm cansağlığı, sevinc və nur, uğur və qələbələrlə dolu uzun ömür arzulayıram! Tanrı Sizə güc və səbir versin! Biz Sizinlə fəxr edir və Sizi çox sevirik! Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!"

## Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi ad günü münasibətilə təbrik edib

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, Türkiyə Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliyini ifadə edib, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparıblar.



## Prezident İlham Əliyev Ağdamın Salahlı Kəngərli kəndinin təməlini qoydu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməlini qoyub.**

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 178 hektara yaxındır. Salahlı Kəngərli kəndində 1376 nəfərin məskunlaşması nəzərdə tutulub. Layihə üzrə kənddə ümumilikdə 418 fərdi ev tikiləcək.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 99 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 850 nəfərin köçürülməsi üçün 150 fərdi evin tikilməsi planlaşdırılır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali müxtəlif təyinatlı obyektlərdə və kənd təsərrüfatı sahələrində işlə təmin olunacaqlar.

Salahlı Kəngərli kəndində 480 şagird yerlik məktəb, 80 yerlik isə uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Salahlı Kəngərli kəndinin təməlini qoydu.

## Xaçınçay su anbarı təmir-bərpadan sonra istifadəyə verildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər.**



Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, Xaçınçay su anbarının 7 kilometr uzunluğunda kanalla birlikdə təmiri və bərpası aparılıb.

Ağdam rayonu ərazisində yerləşən Xaçınçay su anbarı 1964-cü ildə istismara verilib. Anbarın ümumi su tutumu 23 milyon kubmetr, bəndin hündürlüyü 44 metr, uzunluğu 940 metr, su səthinin güzgü sahəsi isə 176 hektar təşkil edir. Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan bu mənbədən ümumilikdə suvarılan 7 min hektar torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva su anbarında görülən işləri əks etdirən videoçarxa baxdılar.

Dövlətimizin başçısı Xaçınçay su anbarını işə saldı.



**Qeyd edildi ki, texniki sxemlə Xaçınçay su anbarına daxil olan sular tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 3,2 kubmetr olan əsas magistral kanala ötürülür. Kanalın başlanğıc 6,64 kilometr hissəsi də bəndlə bərabər təmir və bərpa olunub. Su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilib.**

## Əziz ağştafalılar!

# Qarşıdan gələn Yeni iliniz mübarək!

**Əziz ağştafalılar!**

Növbəti bir ili daha geridə qoyuruq. Və çox xoşbəxt xalqıq ki, ötən hər ilimiz uğurlarımız, nailiyyətlərimiz və ən əsası zəfərlərimizlə tarixin şanlı səhifələrinə yazılır. Məhz 2023-cü il də ölkəmizin tarixində, taleyində şərəfli və qürurlu salnamələri ilə yer aldı. Ən başlıcası isə, yola saldığımız ilin sentyabrında keçirilən Lokal xarakterli antiterror əməliyyatlarındakı növbəti zəfərimiz düşməndə bir daha tərs şillə effekti yaratdı. Ölkəmiz bütövlüyünə qovuşdu. İndi dünyanın siyasi gücləri, beyin mərkəzləri və ən əsası düşmən Cənab Prezident, Müzəffər Ali Baş komandan İlham Əliyevin və onun müzəffər ordusunun gücünə bələddir. İndi Xankəndimizdə, Qarabağımızda, Şuşamızda ümumiyyətlə düşmən tapdağından azad olunan bütün torpaqlarımızda bayrağımız dalğalanır. İndi həmin torpaqlarda öz insanlarımızın səsi eşidilir, öz insanlarımızın nəfəsi duyulur. Bütün bunların fonunda isə biz qalib xalq qürurunu yaşayırıq- özüdəki haqqlı qüruru. Bütün zəfərlərimizin isə bir düsturu, bir formulu var- "Prezident-Xalq-Ordu birliyi". "Biz Birlikdə Güclüyük" devizi ilə çıxdığımız bu yol bizim həm də Milli Həmrəyliyimizin simvoludur. O həmrəylik ki, düşmənin baş üzərində "Dəmir Yumruğ"a çevrildi. Qarabağ Azərbaycandır ifadəsinin sonuna "nida" əlavə edərək, "Dağlıq Qarabağ münaqişəsi"nə nöqtə qoyduq. Ali baş komandanı ətrafında birləşən dəmir biləkli oğulların, igidlərin şücaəti ilə qazandıq bu zəfəri. Bu yolda canından, qanından keçib şəhid olanlarda oldu, canından bir parça qoyub qazi adı alanlar da... Allah bu zəfəri bizə yaşadan, vətənimizi azadlığına qovuşduran şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin!



Bir məqamı xüsusi ilə vurğulamaq istəyirəm ki, məlum olduğu kimi, 2023-cü il Ulu Öndərimizin 100 illiyi ilə əlaqədar ölkəmizdə "Heydər Əliyev ili" olaraq qeyd olundu. Və məhz Ümummilli liderimizin adını daşıyan bu ildə qazandıq biz növbəti zəfərimizi. Bu il də qovuşdu bütövlüyünə vətən torpağımız. Və nə xoş təsadüf ki, "Heydər Əliyev ili"ndə ata ruhuna ən böyük ərmağan oldu- azadlığına qovuşan vətən torpaqlarımız. Ata ruhu, Ulu Öndərimizin ruhu şaddır bu gün.

Qeyd edim ki, 2023-ci ildə ölkəmizin sosial-iqtisadi sahədəki uğurları Ağstafa rayonundan da yan keçməyib. Rayonumuzda bir çox sahələrdə - təhsil, mədəniyyət, gənclər, sosial-iqtisadi, aqrar sahədə mühüm nailiyyətlər əldə olundu. İnfrastruktur layihələri həyata keçirildi, tikinti və abadlıqişləri uğurla icra edildi.

Cənab Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq, rayon sakinlərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə, onların rifah halının daha da yaxşılaşdırılmasına, əhalinin məşğulluğunun təmin olunması istiqamətinə yönələn bütün tədbirlərə xüsusi diqqət ayrıldı və bu sahə də nailiyyətlər əldə olundu.

Beləliklə, çox saylı uğurları ilə geridə qoyduğumuz 2023-cü il, 2024-cü ilin böyük nailləyyət təməli olacaq. Ən əsası isə 2024-ü bütöv Azərbaycanda qarşılayırıq.

Ulu Öndər Heydər Əliyev irsini yaşadan, ideyalarını reallaşdıran, Azərbaycanı uğurlu gələcəyə aparan, zəfərlərimizin memarı, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında həmrəy olmalı, müstəqil Azərbaycan dövlətinin qoruyucusu olmalıyıq!

Beləliklə, hər birinizi "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və Yeni il münasibəti ilə səmimi qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, fəaliyyətinizdə və həyatınızda yeni-yeni uğurlar, Sizə səadət və xoşbəxtlik arzulayıram! Allah Azərbaycanımızı qorusun! Yaşasın Qalib Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandan!

**Seymur Orucov,**
Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı

# 2023-cü il ölkəmizin tarixinə qızıl hərflərlə yazılan illərdən biri olacaq

**2023**-cü ilin başa çatmasına bir neçə gün qalır. Böyük iftixar və qürur hissi ilə demək olar ki, yola salacağımız bu il ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq. Çünki 2023-cü ildə ölkəmiz öz tarixi müstəqilliyini bərpa etdi, dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın işğal altında olan Qarabağ torpaqları azad olundu, üçrəngli bayrağımız Cəbrayılda, Füzulidə, Qubadlıda, Zəngilanda, Xocalıda, Xocavənddə, Ağdamda, Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada və nəhayət, Xankəndidə dalğalandı. Bu günü doğma torpaqlarına qayıdan həmyerlilərimizin sevindiklərini görəndə onların dədə-baba yurdlarına qayıtdıqlarının böyük səbəbkarı olan Ali Baş Komandan İlham Əliyevin ünvanına söylədiklərini eşidəndə adamın ürəyi dağa dönür. Hamı çox sevinir ki, belə bir dövlət başçımız var. Çünki o, ata vəsiyyətini ləyaqətlə yerinə yetirdi, torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

2023-cü il Zəfər ili olmaqla yanaşı, həm də dahi şəxsiyyətimiz Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ili kimi də tariximizə yazıldı.

böyük səbirsizliklə gözləyən azərbaycanlılar sanki həyata yenidən qayıtdı, 8 Noyabr "Zəfər Günü" böyük bayram, qələbə bayramı kimi qeyd olundu.

Bəli, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlər və qazanılan böyük qələbə sülhsevər ölkələr tərəfindən rəğbətlə qarşılandı.

Hamıya yaxşı məlumdur ki, müharibə qansız ötüşmür. Möhtərəm prezidentimiz cənab İlham Əliyev həmişə çalışırdı ki, işğal altında olan torpaqlarımız sülh yolu ilə qaytarılsın. Lakin erməni işğalçıları bunu heç vaxt başa düşmədi, Qarabağ torpaqlarında terror əməliyyatları keçirməyə başladılar. Belə olan halda, qəhrəman Azərbaycan ordusu öz gücünü döyüş meydanına göstərməli oldu və 44 gün müddətində erməni işğalçılarını məhv etdi.

Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə minlərlə vətən oğulları şəhid oldu, onların adları tariximizə qızıl hərflərlə yazıldı. Bu gün vətən uğrunda gedən döyüşlərdə şəhid olan igidlərimizlə təkcə onların valideynləri, yaxın qohumları deyil, bütün Azərbaycan xalqı fəxr edir, onların qəbirləri ziyarət olunur.

Möhtərəm prezidentimiz cənab İlham Əliyevin söylədiyi qızıl kəlam "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" sözlər indi dillər əzbəridir. Bu gün hamının diqqət mərkəzi işğaldan azad olunmuş torpaqlarda aparılan bərpa-quruculuq işlərinə yönəlib. Çox qısa bir vaxtda Şuşada, Ağdamda, Füzulidə, Laçında və eləcə də digər rayonlarda aparılan yenidənqurma və bərpa işləri hamını valeh edir. Öz Yubiley tədbirləri bu ilin əvvəlindən başlayaraq bu gün də davam etməkdədir. Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzun bütün idarə, müəssisə və təşkilatlarında, təhsil, mədəniyyət müəssisələrində dahi şəxsiyyətin yubileyinə həsr olunan tədbirlər daha maraqlı və yaddaqalan oldu. Keçirilən tədbirlərdə Heydər Əliyevin həyat və fəaliyyətindən, onun Azərbaycanda dövlətçiliyimizin qorunub saxlanılmasında apardığı məqaədyönlü işlərdən, müstəqilliyimizin bərpası üçün apardığı mübarizədən geniş söhbətlər açılmışdı. Keçirilən tədbirlərdə çıxış edənlər göstərdilər ki, nə qədər ki, Azərbaycan dövləti, nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyev heç vaxt unudulmayacaqdır. Çünki o, dahi, müdrik, səmimi şəxsiyyət olmuşdur. Dekabr ayının 12-də rayonumuzda Heydər Əliyevin Anım Günü də qeyd olundu və onun əziz xatirəsi yad edildi.

Ağstafanın sosial-iqtisadi həyatında uğurlu illərdən biri hesab ediləcək 2023-cü ildə rayonumuzda da xeyli işlər görülmüş, küçələr abadlaşdırılmış, mədəniyyət və istirahət parklarında böyük quruculuq işləri görülmüşdür. Gənc nəslin təlim-tərbiyəsi işinə diqqət xeyli artırılmış, ümumtəhsil məktəblərində Heydər Əliyev ili ilə bağlı, Zəfər ili ilə əlaqədar ardıcıl tədbirlər keçirilmişdir. Bütün bunlar onu göstərir ki, tariximizə qızıl hərflərlə yazılacaq 2023-cü il heç vaxt unudulmayacaq, həmin ilin yaddaqalan anları həmişə yad ediləcəkdir.

**İbrahim Əliyev**

# Vətəndaşlar fərdi qaydada dinlənildi

Rayon İcra Hakimiyyətinin Başçısı Seymur Orucov vətəndaşlarla növbəti səyyar qəbulu Kolayır kəndində keçirdi. S.Orucov görüşdə çıxış edərək bildirdi ki, Prezident İlham Əliyev Azərbaycanın öz milli maraqlarına uyğun olaraq yürütdüyü çoxşaxəli müstəqil siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu, dinamik iqtisadi göstəriciləri, hərbi qüdrəti gündən-günə yüksəlmiş və Azərbaycan Cənubi Qafqazın lider dövlətlərindən birinə çevrilmişdir.Cənab prezidentin rəhbərliyi altında 44 günlük müharibədə Azərbaycan ordusu Qarabağ torpaqlarının işğaldan azad olunması üçün qəhrəmancasına vuruşmuş, döyüşdə ermənilərə dərs vermişdir. Bu gün Qarabağ torpaqlarında aparılan dinc quruculuq, abadlıq, yenidənqurma işləri hamının diqqətini cəlb edir. Belə bir şəraitdə hər bir Azərbaycan vətəndaşının qürur hissi keçirməyə mənəvi haqqı vardır. Əldə olunan bütün nailiyyətlər ölkəmizin, onun hər bir vətəndaşının gələcək rifahı naminə atılan böyük addımdır.





Kənd sakinləri ilə keçirilən səyyar qəbulda vətəndaşlar fərdi qaydada dinlənildi. Onların müraciətləri nəzərə alındı. Görüşdə çıxış edən kənd sakini Alı Mehdiyev çıxış edərək kəndlərində yüksək sürətli internet şəbəkəsinin olmadığını bildirdi. Kənd sakini Turxan Həmidov ərazidə iki ədəd subartezian quyusunun qazılmasını, Nizami Yolçuyev Kolayır kəndində yararsız telefon dayaqlarının yenisi ilə əvəz olunmasını xahiş etdi. Görüşdə çıxış edən kənd sakini Valeh Bayramov 16,4 km uzunluğu olan Poylu-Düzqışlaq-Kolayır avtomobil yolunun yararsız vəziyyətdə olduğunu bildirdi və bu problemin aradan qaldırılması üçün müvafiq təşkilatlara göstərişlər verilməsini xahiş etdi.



Görüş iştirakçılarının qaldırdıqları problemlərin həlli istiqamətində aidiyyəti üzrə məsul şəxslərə müvafiq tapşırıqlar və tövsiyələr verildi.

Səyyar qəbulda Rayon İcra Hakimiyyəti Başçısının müavinləri, aparatın şöbə müdirləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, aidyyəti qurumların nümayəndələri iştirak edirdilər.

# "Heydər Əliyev məktəbi"ndə növbəti dərs "Ulu Öndər və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" mövzusunda keçirildi

Ağstafa rayon Heydər Əliyev Mərkəzinin nəzdində Ulu Öndərin zəngin irsinin böyüyən gənc nəslillərə aşılanması məqsədilə fəaliyyət göstərən "Heydər Əliyev məktəbi"ndə dərslər davam etdirilir. Növbəti dərsin iştirakçıları Yenigün kənd tam orta məktəbin yuxarı sinif şagirdləri olublar. Şagirdlər əvvəlcə Mərkəzə ekskursiya edib, müasir müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Liderin keçdiyi şərəfli ömür yolu, ölkəmizin hərtərəfli inkişafında göstərdiyi misilsiz xidmətlər haqqında dəyərli məlumatlar əldə edərək dahi rəhbərin həyat və fəaliyyətini əks etdirən eksponat, fotoşəkillərə tamaşa ediblər, eyni zamanda, Mərkəzin fəaliyyət istiqamətləri ilə tanış olublar.

Məktəbin tarix müəllimi Esmira Həsənova mövzuya dair geniş məruzə ilə çıxış edərək bildirib ki, Ulu öndər Heydər Əliyev tarix yaradan dahi şəxsiyyətlərdəndir. Bu gün tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, düşüncəsinin, müdrikliyinin böyüklüyünü bir daha hiss edir, Ümummilli Lider respublikamız, xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi oluruq, Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, sədaqətinə sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi nəticə çıxaran Heydər Əliyev kimi vətənpərvər insan, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi. Heydər Əliyev dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi.

Dərs prosesi Ulu Öndərə həsr olunmuş filmin nümayişi ilə davam etdirilib.

# Növbəti səyyar qəbul Qaçaq Kərəm kəndində keçirildi

Müvafiq qrafikə əsasən Qaçaq Kərəm kənd tam orta məktəb binasında təşkil olunan səyyar qəbulda RİH başçısı aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və aidiyyəti təşkilatların nümayəndələri, eləcə də kənd sakinləri iştirak ediblər.



RİH başçısı Seymur Orucov görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzundan, dinamik sosial-iqtisadi inkişafından, hərbi qüdrətindən ətraflı danışdı. O, qeyd etdi ki, dövlətimizin başçısının konkret tapşırığına uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti rəhbərləri tərəfindən respublikamızın hər yerində keçirilən vətəndaşların səyyar qəbullarının başlıca məqsədi vətəndaş məmnunluğunun artırılması, sakinləri narahat edən məsələləri ətraflı araşdıraraq operativ həllinə nail olmaq, əhalinin sosial rifahının diqqətdə saxlanılmasıdır.

Qaçaq Kərəm kənd ictimaiyyətinin nümayəndələri, kənd ağsaqqalı, Tağı Tağıyev, Mahir Əhmədov, Bəxtiyar Babayev, İzzət Məmmədov və başqaları görüşdə çıxış edərək kəndin torpaq sahələrinin suvarılmasını yaxşılaşdırılması məqsədilə Kür çayı üzərində quraşdırılan nasos stansiyasının istifadəyə verilməsinin sürətləndirilməsini, kəndi suvarma suyu ilə təmin edən suvarma arxının çay yatağında olan 230 metr hissəsinin bərpa olunmasını xahiş etdilər. Kənd sakini Bəhruz Hüseynov yaşayış evinin yaxınlığında olan qəzalı elektrik dayağının yenisi ilə əvəz olunması üçün müvafiq təşkilatların rəhbırlərinə göstərişlər verilməsini xahiş etdi.

Kənd sakinləri həmçinin ölkəmizin ərazi bütövlüyü, suverenliyi və tarixi ədalətin bərqərar olması, işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən nəhəng quruculuq işlərinə, xalqımızın sülh və əminəmanlığa qovuşmasına görə Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.



Səyyar qəbulda qaldırılan hər bir məsələyə dair ətraflı müzakirələr aparılaraq aidiyyəti üzrə məsul şəxslərə nəzarət qaydasında müvafiq tapşırıqlar verilib.

4_4.qxd 28.12.2023 14:18 Page 1



# Zöhrə Hüseyn qızı ilə vida mərasimi keçirildi



*Xalq şairi Hüseyn Arifin qızı Zöhrə Hüseynzadə dekabr ayının 6-da səhər saatlarında uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdi.*

Zöhrə Hüseyn qızı Hüseynzadə 1951-ci ildə Ağstafa rayonunun Yenigün kəndində anadan olub. O, 1956-cı ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş və orada yaşamışdır. Z. Hüseynzadə Bakı şəhərində 190 nömrəli orta məktəbdə təhsil almış, Azərbaycan Tubb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. O, ali təhsil aldıqdan sonra ilk illərdə Bakı şəhərində 3 saylı xəstəxanada həkim-kardeoloq kimi çalışmış, 18 il Yasamal rayon səhiyyə şöbəsinin müdiri vəzifəsində işləmişdir. Z. Hüseynzadə işlədiyi dövrdə kollektiv arasında dərin hörmət qazanmış, 2000-ci ildə isə respublika xəstəxanasına baş həkim vəzifəsinə təyin edilmişdir. O, yaşadığı müddətdə həm həkim kimi, həm də ictimai fəal kimi dövlətə, xalqa sədaqətlə, vicdanla xidmət göstərmişdir. Lakin uzun sürən ağır xəstəlik onun həyatına son qoymuşdur.

Zöhrə Hüseynzadə yaxın qohumlarının məsləhəti ilə Hüseyn Arifin ev muzeyindən son mənzilə yola salınmış və onunla vida mərasimi keçirilmişdir. Vida mərasimində "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə heyətinin sədr müavini Puşkin Əhmədov, İctimai Birliyin Qazax və Ağstafa rayonlarında yaşayan üzvləri, Ağstafa RİH-nin başçısı cənab Seymur Orucov, Qazax RİH-nin başçısı cənab Rəcəb Babaşov, AYB-nin Qazax Zona filialının sədri, şair Barat Vüsal, BDU-nun Qazax filialının müəllim kollektivi, Qazax-Tovuz Regional Gənclər və İdman İdarəsinin sədri Əziz Məsmalıyev, idarə və təşkilat rəhbərləri, Ağstafa RİH-nin məsul şəxsləri, təhsil müəssisələrinin direktorları, Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin əməkdaşları, şairlər, ziyalılar, rayon ictimaiyyəti iştirak ediblər.

Dəfn mərasimində ziyalılar adından Qazax Yazıçılar Birliyinin rəhbəri Barat Vüsal çıxış edərək Hüseyn Arif yaradıcılığında milli-mənəvi dəyərlərdən, eləcə də Zöhrə xanımın bir həkim kimi xalqa təmənnasız xidmətindən, saza-sözə, dostluğa yüksək dəyər verməsindən, el-obaya bağlı olmasından söz açaraq Hüseyn Arif ocağından dünyasını dəyişənlərə Uca Tanrıdan rəhmət dilədi. O, qeyd etdi ki, xalq şairi Hüseyn Arifin ailəsinə göstərilən ehtiram ədəbiyyatımıza, poeziyamıza olan ehtiramdır. Barat Vüsal öz çıxışında Zöhrə xanımın dəfn mərasimində iştirak edənlərə öz adından və bütün yazıçılar adından minnətdarlığını bildirdi.





# Baytarlıq xidmətinə diqqəti artırırıq

***Bildiyimiz kimi Baytarlıq xidməti Kənd Təsərrüfatında ən önəmli sahələrdən sayılır. Baytarlıq-heyvan xəstəliklərinin qarşısının alınması, insan sağlamlığı üçün yararlı və təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı , habelə əhalinin heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən mühafizəsi sahəsidir.***



Baytarlıq təbabəti və tibb elminin mahiyyətini mükəmməl bilən zəka sahiblərinin məhşiur bir kəlamı vr. "Tibb həkimləri yalnız insanları, baytar həkimləri isə bütün bəşəriyyəti müalicə edir".

Ağstafa rayonHeyvan Sağlamlığı və Baytarlıq Xidmətləri idarəsi bu məsul işdə fermer təsərrüfatlarında saxlanılan kənd təsərrüfatı heyvanlarının sağlamlığının qorunub saxlanmasına müalicə və profilaktikasında , baytarlıq sanitariya tədbirlərinin vaxtında və səmərəli yerinə yetirilməsinə xidmət edir.

Hər il üçün rayon ərazisində mövcud olan heyvanların baş sayına uyğun olaraq Aqrar Xidmətlər Agentliyi tərəfindən göndərilmiş epizootik tədbirlər planına uyğun olaraq Dövlət vəsaiti hesabına maliyyələşən vaksinlərdə heyvanlararasında vaxtıvaxtında profilaktik olaraq peyvəndləmə işləri aparılır. Demək olar ki, 2023-cü il üçün nəzərdə tutulmuş bütün tədbirlər yekunlaşmaq üzrədir. Belə ki, son 11 ayda 25999 baş İBH-larda Qarayara, 114146 baş XBH-larda Qarayara, 2273 baş TDH-larda Qarayara , 231391 baş XBH-larda Dabaq, 52097 baş İBH-larda Dabaq, 3840 baş İBH cavanlarda Nodulyar Dermatit, 436 baş İBH-larda Qarayara , 23463 baş XBH-larda Bruselyoz, 7194 baş İBH-larda Bruselyoz, 1791 baş İBH-larda Leptosprioz, 25252 baş İBH-larda Nodulyar Dermatit, 119930 baş XBH-larda Çiçək, 200 baş Atlarda Rinopnevmaniya, 200 baş Atlarda Qrip, 544 baş İtlərdə Quduzluq xəstəliklərinə qarşı profilaktiki peyvəndləmə işləri aparılmışdır.

Son 2 ildən artıq bir zamanda Respublikamızda Baytarlıq sahəsində gedən islahatlarla əlaqədar həmin tədbirləri xidməti müqavilə bağlamış özəl (fərdi ) baytar həkimləri yerinə yetirir. Ağstafa rayon HSBX -ləri idarəsi üzrə 20 nəfər özəl baytar həkim fəaliyyət göstərir. Baytar həkimləri profilakti peyvəndləmə işləri ilə yanaşı heyvanlar arasında hər hansı bir vətəndaş müraciəti olarsa müayinə, müalicə , dezinfeksiya işlərini xidmət haqqı müqabilində həyata keçirirlər. Bəzi fermerlərin peyvəndin aparılmasına etirazını bildirsə , peyvənddən yayınma halları baş versə, imtina etsə bu zaman vətəndaşlar arasında tərəfimizdən maarifləndirmə işləri aparılır, lazimi təbliğat və tövsiyyələr verilir. Əks təqdirdə həmin fermer barəsində imtina aktı tərtib edilir və aidiyyatı üzrə tədbir görülür.

Bütün bu aparılan işlərin nəticəsi olaraq rayon ərazisində heç bir iti gedişli infeksion xəstəlik qeydə alınmamışdır və epizootik durum sabitdir.

**Şəfayət Bağırov,**
*Rayon Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri İdarəsinin rəisi*

# Ağstafalı Ayan Abdıyeva ölkə birinciliyində mükafata layiq görüldü

**Rayonda idmanın inkişafına diqqət gündən-günə artırılır. Bu sahəyə maraq göstərənlər arasında gənc qızların da olması xüsusilə diqqəti cəlb edir. Bu günlər ölkəmizdə karate üzrə birinciliyin keçirilməsində Ayan Abdıyevanın mükafata layiq görülməsi ağstafalıları sevindirmişdir.**




Ayan Abdıyeva Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Karate Federasiyasının təşkilatçılığı ilə 30 noyabr-03 dekabr tarixlərində Bakı şəhərində yeniyetmələr və gənclər arasında keçirilən 28-ci ölkə birinciliyində xüsusilə fərqlənmişdir. Ağstafa şəhər A. Abdullayev adına 2 saylı orta məktəbin 9-cu sinif şagirdi A. Abdıyeva 14-15 yaş qrupunda 47 kiloqram çəki dərəcəsi üzrə məharətlə çıxış etmiş və o, bürünc medala layiq görülmüşdür. Əldə olunan uğura görə idmançımızı və onun məşqçisi Namiq Həsənovu təbrik edir, onlara gələcək yarışlarında daha böyük uğurlar arzulayırıq.



## Zəfər bizimdir

Yatmamışdı oyağıydı, güc yığırdı "qoca vulkan,"
Bu vulkanın bir adı var, odlar yurdu Azərbaycan!
An yetişdi, əmr verdi baş sərkərdə, baş komandan...
Şir ürəkli, nər igidlər yumruq olsa əgər dedi,
Bizimkidir qalibiyyət, bizimkidir zəfər dedi!

Şanlı ordum, qayıdışın Qarabağa can gətirdi,
Qətiyyətin,rəşadətin bu həsrətə son gətirdi...
Səni bura 30 ildə yerdə qalan qan gətirdi,
İçindəki qisas hissin durma, göstər hünər dedi,
Bizimkidir qalibiyyət, bizimkidir zəfər dedi!

Yağı düşmən, bundan sonra sırğa elə qulağında,
Bil ki, özün yanacaqsan yandırdığın ocağında.
Diz çökərək təslim oldun ulu Türkün qabağında.
Türkün gücü,Türkün sözü Turan eldən xəbər dedi,
Bizimkidir qalibiyyət, bizimkidir zəfər dedi!

Bu millətin birliyinə bütün dünya heyran oldu,
Bu birliyin uğuruna neçə insan qurban oldu!
Yüksələrək şəhadətə tarix yazdı, dastan oldu,
Çünki yolum haqq yoludur, varam sona qədər dedi!
Bizimkidir qalibiyyət, bizimkidir zəfər dedi!

İgid əsgər, bu qələbən bayram qatdı bayramıma,
Sevinc dolu hər səhərim nur ələdi axşamıma!
Qazandığın zəfərlərin ilham verdi İlhamıma!
Dayanmaram, üstümüzə gəlsə bütün bəşər dedi,
Bizimkidir qalibiyyət, bizimkidir zəfər dedi!

## Zəfərin mübarək, Azərbaycanım!

Ey Oğuz elinin igid ərləri,
Döyüş meydanının cəngavərləri,
Vətən harayının səfərbərləri,
Qorqud babamızın ruhu sizinlə...
Sizə alqış deyir Oğuz Xaqanım,
Zəfərin mübarək, Azərbaycanım!

Al-əlvan geyinib dərələr,düzlər,
Süslənib bəzənib gəlinlər,qızlar,
Hərəsi bir igid yolunu gözlər...
Baxıb seyr etdikcə bu mənzərəni,
Necə qaynamasın,coşmasın qanım?
Zəfərin mübarək, Azərbaycanım!

Bu gün Şəhidlərin ruhları şaddır,
Bu gün Qarabağım hürdür, azaddır!
Bu gün Türk bir canda qoşa qanaddır...
Türkə dil uzadan dilindən olar,
Türklüyüm şöhrətim, şərəfim, şanım!
Zəfərin mübarək, Azərbaycanım!

Daha boş qalmasın papaqlarımız,
Qoy xoşbəxt böyüsün uşaqlarımız.
Daim yanar olsun ocaqlarımız...
Biz ümumbəşəri sülh istəyirik,
Sülhə qucaq açsın bütün cahanım.
Zəfərin mübarək, Azərbaycanım!

## Azərbaycan

Ey qüdrətli, əzəmətli xalqım mənim, yurdum mənim!
Ey düşmənə qan udduran rəşadətli ordum mənim!
Ey səbrinə sığışmayan yenilməz "Boz Qurd"um mənim!
Sən varsansa daim hər an var olacaq Azərbaycan!
Sənə əyri baxan gözlər kor olacaq, Azərbaycan!

İnanırdıq, biz bu xalqın qeyrətinə inanırdıq,
Birliyinə, tamlığına, vəhdətinə inanırdıq,
Yerin, göyün sahibinin qüdrətinə inanırdıq,
Bilirdik ki, dayanmaqdan yorulacaq Azərbaycan!
Boz bulanlıq axar sular durulacaq, Azərbaycan!

Düşməninin atdığı ox düz otuz il batdı bizə,
Vəhşiləşdi sağın, solun çoxu caynaq atdı bizə...
Qan ağlayan Xocalının şükür, əli çatdı bizə,
Ayrı düşən balan sənə sarılacaq, Azərbaycan!
Ulu Tanrı özü sənə yar olacaq, Azərbaycan!

Qırx dörd günün üzərinə iyirmi dörd saat gəldi,
Bir gözümüz ağlasa da, birinə toy-büsat gəldi...
Şəhidlərin qanı axan torpaqlara həyat gəldi,
Aşiqlərin sənə hər an vurulacaq, Azərbaycan!
Bu eşq düşmən ürəyinə qor olacaq, Azərbaycan!

İndi baxın xəritəyə, görün necə tam olduq biz,
Ulu Öndər arzusunu gerçək etdi sərkərdəmiz...
Qovuşacaq bir gün sənə can Zəngəzur, ana Təbriz,
Qolundakı zəncirlərin qırılacaq, Azərbaycan!
Azərbaycan olan yerdə qurulacaq, Azərbaycan!

**Rüfət Axundlu,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

## Var

Göytək gölüm, gültək gülüm, ətirli baharım var,
Etibarlı, sədaqətli, ilqarlı dostlarım var,
Sevincimə, kədərimə şərik olan yarım var,
Adam kimi yaşamağa özgə nə lazımdı ki?!

Dünənimə işıq tutan dastanım, nağılım var,
Bu günümün dayaqları qızım var, oğlum var,
Bir kəsə salam verəndə cavabda sağolum var,
Yeyib-içib sağ olmağa özgə nə lazımdı ki?!

Dost, tanışlar məclisində sözüm var, şöhrətim var,
Qədir bilən əhli-hala sayqım var, hörmətim var,
Azad yurdum,güclü ordum,gözəl məmləkətim var,
Şirin yazıb- yaratmağa özgə nə lazımdı ki?!..

**Şirin Namazov**

## Etibarsız sayılır

Saloğlu qəsəbə sakini Yusufov Fəxrəddin Kamil oğluna məxsus MN 000962 nömrəli Müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

"N" saylı hərbi hissənin hərbi qulluqçusu gizir Ağayev Hakim Arif oğluna məxsus gizirlik vəsiqəsi, şəxsiyyət vəsiqəsi, əməkhaqqı kartı və veteranlıq kartı itdiyi üçün etibarsız sayılır.

***

Ağgöl kənd sakini Süleymanov Vüqar İsə oğlunun 1992-ci ildə Qazax Kənd Təsərrüfatı texnikumunu bitirməsi barədə 42 saylı əmrlə ona verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

## E L A N

"Şahquluoğlu" Açıq Səhmdar Cəmiyyəti Təşkilatı hüquqi formasını dəyişərək "Şahquluoğlu" Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilir və bunu elan edir.

## Allah rəhmət eləsin!

"Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev yaxın dostu Elmar Kərimova, bacısı oğlu
**Taryel İsgəndərovun**
vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Ağstafa Rayon Təhsil Sektorunun kollektivi sektorun rəhbəri Mədəd Zeynalova, qaynı
**Taryel İsgəndərovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***

1 saylı orta məktəbin kollektivi Rayon Təhsil Sektorunun müdiri Mədəd Zeynalova, qaynı
**Taryel İsgəndərovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***

Yeni Azərbaycan Partiyası rayon təşkilatının kollektivi Elmar Kərimova, bacısı oğlu
**Taryel İsgəndərovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***

3 saylı orta məktəbin kollektivi Rayon Təhsil Sektorunun müdiri Mədəd Zeynalova, qaynı
**Taryel İsgəndərovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor: İBRAHİM ƏLİYEV

Həmtəsisçi: "Ağstafa" qəzetinin jurnalist kollektivi
Şahədətnamə: № 308

Redaksiya heyəti: L.Eyyubova, İ.Sofuyev, M.Zeynalov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov, A.Əlixanov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Son Dakika" MMC-nin mətbəəsində çap olunmuşdur.

Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000